Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"**

# "Böyük Qayıdış" üçün hazırlıq işləri sürətlənir

**Vətən müharibəsi ilə ərazi bütövlüyünü bərpa edən Azərbaycan üçün prioritet məsələ azad edilmiş ərazilərə yenidən həyatın qayıtması, bu yerlərin yenidən abadlıq, quruculuq ünvanına çevrilməsidir. Elə bundan irəli gəlir ki, azad edilən Azərbaycan ərazilərində həyata keçirilən abadlıq-quruculuq işləri fonunda bu yerlərdə ən qabaqcıl tələb və standartlara uyğun infrastruktur sistemi qurulur, müasir yaşayəş ünvanları salınır.**

Bütün bunlar öz növbəsində həmin yerlərə "Böyük Qayıdış"ın təmin edilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.



### Azad ərazilərdə həyata keçirilən bərpa işlərində iştirak edən əcnəbi şirkətlərin sayı artır

Azad olunmuş ərazilərdə bərpa və quruculuq proseslərində iştirak etmək istəyən xarici tərəfdaşların sayının artması nəzərədə tutulan işlərin daha tez həyata keçirilməsinə əlavə imkanlar yaradır. Hazırda bərpa və quruculuq prosesində Türkiyə, İtaliya, Çin, Böyük Britaniyadan olan şirkətlər iştirak edir. İndi onların sırasına dünya miqyasında tanınan yeni şirkətlər və təşkilatlar, maliyyə qurumları da qatılmaq niyyətindədir. Məsələn, əldə etdiyi texnoloji nailiyyətlərlə dünya liderləri sırasında yer alan İsrailin bir çox tanınmış şirkəti üçün də Azərbaycanın azad edilmiş ərazilərində bərpa və quruculuq prosesində iştirak etmək artıq xüsusi maraq doğurur. Gözlənir ki, İsrail şirkətləri azad edilmiş ərazilərdə ilk olaraq enerji layihələrində iştirak edəcəklər. Ölkəmiz tərəfindən azad edilmiş ərazilər də daxil olmaqla, enerji sahəsində gələcək planlar və layihələr barədə İsrail şirkətlərinə müvafiq məlumatlar verilib.

Azərbaycan nəzərə alır ki, İsrail şirkətləri bərpa olunan enerji sahəsində qabaqcıl təcrübəyə və texnologiyalara malikdir. Məhz bununla əlaqədar İsrail şirkətləri bərpa olunan enerji mənbələri üzrə hərraclarda iştiraka çağırılıb. Edilən dəvət böyük məmnuniyyətlə qəbul olunub. Qeyd edilən kontekstdə ABŞ şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında iştirakı məsələsi yenidən gündəmə gəlib. ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer ADA Universitetində keçirilən Regional Enerji Təhlükəsizliyi Simpoziumunda çıxışında bu xüsusda maraqlı məqamlara toxunub. Litzenberqer deyib ki, ABŞ şirkətləri bərpa olunan enerji mənbələrini bazara çıxarmaq üçün Azərbaycanla əməkdaşlıq etməyə hazırdır: "Mən bilirəm ki, Azərbaycanın yeni qaytarılmış ərazilərdə və ölkənin qalan hissəsində planlaşdırılan layihələri var. Azərbaycanın enerji sahəsi ölkə üçün və Avropanın enerji təhlükəsizliyi üçün transformativ olub. Bərpa olunan enerji potensialını artırmaqla Azərbaycan regionda və kənarda enerji təhlükəsizliyində vacib oyunçu rolunu oynaya bilər. Birləşmiş Ştatlar Azərbaycanın enerji sektorunun böyüməsinə və inkişafına, enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfələri dəstəkləməyə davam etməyə hazırdır". Nüfuzlu maliyyə qurumlarında biri olan Avropa Yenidənqurma və İnkişaf Bankının da işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakı ilə bağlı konkret müzakirələr aparılır. Azərbaycan hesab edir ki, beynəlxalq maliyyə institutları, o cümlədən Avropa Yenidənqurma və İnkişaf Bankının ilə birgə həyata keçirilən layihələrdə qabaqcıl təcrübənin, müasir texnologiya və yeniliklərin ölkəmizdə tətbiqi xüsusilə əhəmiyyətlidir. Bir müddət əvvəl isə Azərbaycan Energetika Nazirliyi və Böyük Britaniyanın BP şirkəti arasında Zəngilan-Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair İcra Müqaviləsinin imzalanıb. BP ilə yanaşı, Yaponiyanın TEPSCO şirkəti də azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması prosesinə qoşulub. Ümumiyyətlə, belə xarici tərəfdaşların sayı sürətlə artır.

### Azad ərazilərimiz vahid konsepsiya əsasında bərpa olunur

O da mühüm məqamdır ki, azad edilmiş ərazilərdə görülən işlər bu yerlərdə sosial-iqtisadi inkişafa da mühüm təkan verəcək. Deməli, burada insanların məşğulluq problemləri də uğurla həllini tapacaq.

Ümumiyyətlə, azad edilmiş ərazilərin vahid konsepsiya əsasında bərpası ölkənin iqtisadi potensialının genişlənməsinə səbəb olacaq. Bu ərazilərin reinteqrasiyası ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək, iqtisadi artıma səbəb olacaqdır. Maliyyə Nazirliyinin 2022-ci il üçün icmal büdcəsinin proqnozunda da qeyd edilib ki, Qarabağın bərpa prosesi çoxşaxəli olduğu üçün nəinki həmin ərazilərdə, ümumilikdə ölkə iqtisadiyyatının bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaranacaq. Digər tərəfdən, Azərbaycan dövlətinin atdığı çevik addımlar bölgənin iqtisadi inkişafını təmin etməklə bərabər, məcburi köçkünlərin öz doğma yurdlarına köçürülməsi məqsədini daşıyır. Hazırda azad olunan ərazilərin bərpası və davamlı tarazlı inkişafının təmin edilməsi məqsədilə ilkolaraq bu yerlərdə kommunal, iqtisadi və sosial infrastrukturun qurulması həyata keçirilir. Bunun ardınca azad olunan inzibati rayon mərkəzlərində və kəndlərdə yaşayış binalarının və evlərin tikintisi və əhalinin məskunlaşmasının təmin edilməsi reallaşacaq. Artıq bu istiqamətdə müvafiq addımlar atılır. Həmin ərazilərdə istehsal, xidmət və ticarət sahələrinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi və digər bu kimi proseslərin də uğurla icrasına start verilib. Məhz bu da keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdış prosesini daha da tezləşdirəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**